Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 50-51 (7512-7513) ❖ 1933-cü ildən nəşr olunur ❖ Bazar ertəsi, 12 noyabr 2018-ci il. ❖ news@qebele-ih.gov.az


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***7 noyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının uğurla inkişaf etdiyi bildirilib, hazırda ölkəmizlə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni saziş üzrə danışıqların aparıldığı vurğulanıb və bu sazişin gələcək əməkdaşlığın hərtərəfli inkişafı üçün əlverişli imkan yaradacağı qeyd olunub.

Söhbət zamanı eyni zamanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi ətrafında, Azərbaycanla Avropa İttifaqı arasında turizm, nəqliyyat, təhsil və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

***5 noyabr***

Ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfərləri çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki “Qarabağ Atçılıq Təsərrüfatı” Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağ Atçılıq Kompleksinin, Azərxalça Açıq Səhmdər Cəmiyyəti Ağdam Filialının, Ağdam Muğam Mərkəzinin, əsaslı şəkildə yenidən qurulmuş Quzanlı–İmamqulubəyli–Orta Qərvənd–Xındırıstan avtomobil yolunun açılışında iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olarkən yolüstü Ağcabədi rayonunun Hindarx qəsəbəsində Əsmər Hüseynovanın pambıq sahəsi ilə tanış olublar.

***4 noyabr***

Prezident İlham Əliyev Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib. Görüşdə ikitərəfli münasibətlər müzakirə olunub.

* * *

Dövlət başçımız İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***1 noyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə olunub.

## İlham ƏLİYEV: *«Bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır»*




# Mütərəqqi islahatların parlaq nəticələri

***Hər bir dövlətin uzunmüddətli inkişaf perspektivi onun sağlam və etibarlı təməl üzərində qurulmasından asılıdır. Bu gün ölkəmizin regionda əsas iqtisadi güc mərkəzinə çevrilməsi müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi möhkəm təməl üzərində möhtərəm Prezidentimiz İlham Əliyevin yorulmaz fəaliyyəti, xüsusilə də onun dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımların nəticəsində də mümkün olmuşdur.***

Ölkənin iqtisadi inkişafına xüsusi diqqətlə yanaşan Prezident İlham Əliyevin qeyri-neft sektorunun yüksəlişinə göstərdiyi diqqət bu gün beynəlxalq səviyyədə etiraf olunur. Dövlət başçısı bütün proqram xarakterli çıxışlarında inkişafın yeni mərhələ üzrə istiqamətlərini göstərməklə vurğulayır ki, yalnız düşünülmüş siyasət, qətiyyətli siyasi iradə, xalqla birliyin möhkəmlənməsi sayəsində ölkəmizdə qarşıya qoyulan möhtəşəm vəzifələrə nail olmaq mümkündür. Qeyri-neft sektorunun inkişafını neft siyasətinin məntiqi davamı kimi dəyərləndirən Prezident İlham Əliyev bu istiqamətdə davamlı tədbirlər həyata keçirməklə uğurlu nəticələrə yol açıb.

Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişafı, iqtisadi və maliyyə sisteminin sabitliyinin təmin olunması, biznes mühitinin daha da yaxşılaşdırılması, əhalinin sosial rifahının yüksəldilməsi və digər istiqamətlərdə əhəmiyyətli layihələr tətbiq olunur və bu da özünün müsbət nəticələrini göstərir. Şübhəsiz ki, xalqımız bütün bunları görür və yüksək dəyərləndirir. Xalq da bu layihələrin fəal icraçısı və iştirakçısıdır.

Bu gün Azərbaycan siyasi və iqtisadi baxımdan tam müstəqil dövlətdir. Ölkəmiz heç kimdən asılı deyil və buna görə də inamla müstəqil siyasətini həyata keçirir. Məhz bu siyasətin nəticəsidir ki, 2018-ci ilin arxada qalan dövründə böyük iqtisadi fəallıq müşahidə olunub. Belə ki, bir müddət öncə Cənub Qaz Dəhlizi, TANAP kimi irimiqyaslı layihələr uğurla başa çatıb. Bakı Dəniz Limanının istifadəyə verilməsi də Azərbaycanın tranzit ölkə kimi nüfuzunu daha da artıracaq. Ümumilikdə, son illər ərzində Azərbaycanın iqtisadi inkişafı dünya miqyasında rekord həddə çatıb. Azərbaycan dayanıqlı valyuta ehtiyatlarını yaradıb, ölkənin valyuta ehtiyatları ümumi daxili məhsula bərabər səviyyədədir.

Hazırda Azərbaycanın inkişaf strategiyasında hər dövrün çağırışlarına yüksək səviyyədə cavab verilməsi, yeni-yeni hədəflərin gerçəkləşdirilməsinə yüksək əzmkarlıq göstərilməsi iqtisadi inkişaf modelinin dünya üçün cəlbediciliyini daha da artırır. Qətiyyətlə demək olar ki, əldə olunan nailiyyətlər ölkə rəhbərliyinin düşünülmüş siyasətinin uğurla həyata keçirilməsinin nəticəsidir.

**“Qəbələ”**

## Beynəlxalq təşkilatlar yüksək qiymətləndirirlər

Azərbaycanda həyata keçirilən islahatlara və onların nəticələrinə yüksək qiymət verən beynəlxalq təşkilatlardan biri də dünyanın ən nüfuzlu və dünya iqtisadiyyatına təsir etmək imkanı olan Dünya Bankıdır. Bu il oktyabr ayının 31-də Dünya Bankı tərəfindən açıqlanan “Doinq Business 2019” hesabatında ölkəmizin son illər iqtisadi və sosial sahədə, idarəçilikdə apardığı islahatlar və nəticələri yüksək qiymətləndirilir.

Hesabatda göstərilir ki, bir neçə il öncə neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi iqtisadi yüksəlişi neftdən asılı olan ölkələrin iqtisadiyyatına ciddi təsir göstərməsinə baxmayaraq Azərbaycan qlobal maliyyə-iqtisadi böhrandan minimal çətinliklə çıxmağı bacardı. 2016-cı ilin birinci rübündən başlayaraq Azərbaycanda qeyri-neft sektorunun potensialından səmərəli istifadə üçün təsirli islahatlar, proqramlar həyata keçirilməyə başlandı. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar, Milli Məclisin qəbul etdiyi qanunlar, Nazirlər Kabinetinin qərarları yeni iqtisadi islahatların hüquqi bazasını təmin etdi. Reallıq göstərir ki, aparılan islahatlar nəticəsində iqtisadiyyatda mühüm nailiyyətlər əldə olunub, ümumi daxili məhsul buraxılışında qeyri-neft sektoruna aid sahənin xüsusi çəkisi artıb.

**«Qəbələ»**